

# ƏNƏNƏNİ DAVAM ETDİRMƏLİYİK

**Salyan torpağı Azərbaycan mədəniyyətinə bir-birindən maraqlı, nəhəng simalar - korifeylər bəxş etmişdir: Qulu Əsgərov, Həsən Məmmədov, Xəlil Rza Ulutürk...**

**Təbii ki, bu siyahını xeyli uzatmaq olar. Amma buna lüzum yoxdur. Çünki məqsədimiz bu görkəmli sənətkarlardan deyil, hazırda bu bölgədə fəaliyyət göstərən mədəni-maarif müəssisələrinin işindən, həyata keçirilən mədəni tədbirlərdən söhbət açmaqdır. Yerlərdə gördüklərimiz bizdə belə inam yaratdı ki, mədəniyyətimiz sağlam kök üstündə rişələnir.**

**İstedadlı uşaqların potensialı bizdə daha böyük ümid, xoş ovqat yaratdı. Hətta bu yerdə bir atalar məsəlini də xatırladıq:**

**«Su axan yerdən bir də axar...»**

Salyan Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elçin Hüseynovla söhbət zamanı bir daha əmin olduq ki, böyüməkdə olan nəslin arasında gələcəyin Aşıq Pənahları, Həsən Məmmədovları, Qulu Əsgərovları, Xəlil Rza Ulutürkləri də yetişməkdədir.

- Nəzərinizə çatdırıram ki, şöbəmizin tabeliyində 109 mədəniyyət müəssisəsi, o cümlədən 1 rayon, 1 qəsəbə və 14 kənd mədəniyyət evi, 5 şəhər və 25 kənd klubu, Heydər Əliyev muzeyi, tarix-diyarşünaslıq muzeyi, Dövlət rəsm qalereyası, uşaq incəsənət məktəbi, mədəniyyət və istirahət parkı, kənd musiqi məktəbi, 1 mərkəzləşdirilmiş, 1 uşaq, 1 gənclər, 5 şəhər və 47 kənd kitabxanası, Dövlət kukla teatrı və kinoteatr vardır.

Bu müəssisələrdə 450 nəfər çalışır. Onlardan 105 nəfəri ali, 153 nəfəri orta ixtisas, 82 nəfəri isə orta təhsillidir. 110 nəfər texniki işçilərdir. Mədəniyyət işçilərinin 302 nəfəri qadınlardır.

Hesabat ilində müəssisələrin maddi-texniki bazası möhkəmlənmiş, şöbəyə ayrılan 83400 manat vəsait müasir texniki və yumşaq avadanlıqların alınmasına sərf edilmişdir.

Dövlət proqramına uyğun olaraq MKS avtomatlaşdırılmış kitabxana sisteminə keçirilmişdir. Mərkəzi kitabxanada İBBİS – 64 baza sistemi yaradılmış, yüksək sürətli və fasiləsiz internetlə təmin olunmuşdur. Hazırda burada «Kataloqlaşdırıcı», «Oxucu» və «Qəzet-jurnal materialları»nın kataloqu Modulu işləyir.

Heydər Əliyev və rayon tarix-diyarşünaslıq muzeyləri cari təmir olunmuş, kompüter dəsti və yumşaq avadanlıqlarla təmin edilmişdir. Dövlət rəsm qalereyası müasir standartlara cavab verən yeni binaya köçürülmüş, avadanlıqlarla təchiz olunmuşdur. Eyni sözləri rayon incəsənət və musiqi məktəblərinin təmiri, musiqi alətləri və texniki avadanlıqlarla təminatı barədə də söyləmək olar.

Şorsulu, Boranıkənd, Alcalı və Düzənlik kəndlərində rayonun daxili imkanları hesabına yeni kitabxana binaları tikilmiş, Kürsəngi, Varlı, Yolüstü kənd kitabxanaları müasir binalara köçürülmüş, avadanlıq-





larla təmin edilmişdir.

Rayon üzrə 113 mədəni-kütləvi tədbir keçirilmişdir. Bunlar əsasən tarixi əlamətdar günlərə, yubileylərə və bayramlara həsr olunmuşdur. Buna misal olaraq Əlibəy Hüseynzadə, Əliağa Kürçaylı, Xəlil Rza Ulutürk, Aşıq Pənah və Qulu Əsgərovun anım gecələrini, hərbi vətənpərvərlik, ekologiya, milli-mənəvi dəyərlərimiz, yoxsulluğun azaldılması, sosial-iqtisadi inkişaf, narkomaniya ilə mübarizə və s. bağlı tədbirləri göstərmək olar.

Hər vaxt olduğu kimi tədbirlərdə «Cəngi» xalq kollektivi, «Mahirlər» ailə ansamblı, «Hünər» sirk kollektivi, «Güzgü» miniatür xalq teatrı, «Gənclik» xalq çalğı alətləri ansamblı, «Sevinc» instrumental ansamblı, «Muğan» foto-kino studiyası, «Kürün töhfəsi» ədəbi birliyi və başqaları yüksək peşəkarlıqları ilə fərqlənmişlər.

2009-cu ildə kitabxanaların yeni ədəbiyyat, muzeylərin eksponatlarla zənginləşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Hazırda MKS-in kitab fondu 533898 nüsxədir. Bu ədəbiyyatın 54592 nüsxəsi latın qrafikalıdır.

Rayonda 2 muzey fəaliyyət göstərir. Əlibəy Hüseynzadə adına rayon tarix-diyarşünaslıq muzeyi 6 zaldan, 2 foyedən ibarətdir. Hesabat dövründə muzeyə 12318 nəfər ekskursiyaya gəlmişdir. Burada 16 mühazirə oxunmuş, 14 sərgi təşkil edilmiş, eksponatların sayı 11230 nüsxəyə çatdırılmışdır. Muzeydə il ərzində 36 tədbir («Unutsaq unudularıq», «Şəhidlər unudulmur», «Burda tarix yaşayır», «Ziyalılar və gənclər», «Tarixin yaddaşı», «Qırxçıraq tarixi», «Tarixi yaşadanlar» və s. ) keçirilmişdir.

**Heydər Əliyev muzeyi 2006-cı ildən fəaliyyət göstərir. Burada ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə dair 260-dan artıq eksponat nümayiş olunur. Muzey 8 bölmədən ibarətdir.**

**TURAL**